**UOT:** 657; 311.216; 336.717.6 338:004; 330.47; 338:002.6
**JEL:** M-00; D-89

**HACIYEVA M. X.**
Azərbaycan Kooperasiya Universiteti
"Mühasibat uçotu və audit" kafedrasının
Baş laborantı, Magistr

# INFORMASİYALARI İDARƏETMƏNİN MÜHASİBAT UÇOTU AMİLİ

**Xülasə**

**Tədqiqatın məqsədi** –Müasir mərhələdə mühasibat uçotu informasiyalarının müəssisənin maliyyə- təsərrüfat fəaliyyətinin idarə olunmasında təsirini müəyyən etməkdir. Idarəetmə mexanizminin təkmilləşdirilməsində informasiyaların yığılması, saxlanması, işlənməsi və ötürülməsində informasiya texnologiyalarından istifadənin zəruriliyi əsaslandırılıb.

**Tədqiqatın metodologiyası -** sistemli yanaşma

**Tədqiqatın nəticəsi** –Müasir mərhələdə maliyyə (mühasibat) uçotu informasiyalarının müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin idarə olunmasında rolu getdikcə artmaqdadır.

**Açar sözlər:** *mühasibat uçotu, uçot göstəriciləri, informasiya, idarəetmə, qərarların qəbulu, maliyyə.*

## GİRİŞ

Hər bir cəmiyyətin inkişafı və fəaliyyətinin əsasını maddi istehsal təşkil edir. İnsanların maddi tələbatının ödənilməsi daim insan cəmiyyətinin başlıca vəzifəsi olmuşdur. Bunun üçün isə istehsal və satış prosesində istifadə olunan əmək vasitə və əşyalarının, avadanlıqların, nəqliyyat vasitələrinin, alətlərin istehsal inventarlarının, xammalların, materialların, yarımfabrikatların və s. olması lazımdır. İstehsal-ümumilikdə məcmuu məhsulun hərəkətinin başlanğıcı kimi təkrar istehsal prosesinin əsas mərhələsi hesab edilir və o **istehsal - tədavül-istehlak** proseslərindən keçir. İstehsal, tədavül və istehlak prosesləri fasiləsiz olaraq təkrar olunur, cəmiyyətdə isə onun inkişafının bütün mərhələlərində bu prosesləri xarakterizə edən informasiyalar əldə etmək zəruriyyəti yaranır.

Mühasibat uçotu daima təkmilləşdirilərək dövrün tələbləri səviyyəsinə uyğunlaşmış, bazar iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının formalaşması, sahibkarlığın inkişafı və idarəetmə sistemində mühüm amilə çevrilmişdir. Müstəqillik qazandıqdan sonra ölkəmizdə "Mühasibat uçotu haqqında " Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir (1995, 2004-cü il, bu qanuna müxtəlif illərdə əlavə və dəyişikliklər olunmuşdur.) Bu Qanun mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən mühasibat uçotunun təşkili və aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi qaydalarını tənzimləyir.

Yeni iqtisadi şəraitdə ölkəmizdə maliyyə hesabatları beynəlxalq standartlar(MHBS) nəzərə alınmaqla milli mühasibat uçotu standartları (MMUS) hazırlanmışdır. Onun tətbiqi ilə, mühasibat (maliyyə) uçotu və hesabatlarda şəffaflığın təmin edilməsi, informasiyaların düzgün və etibarlı olması məsələsi qarşıya qoyulmuşdur.

**Mühasibat uçotu informasiyaları idarəetmənin mühüm amilidir.**

Müasir bazar münasibətləri şəraitində yeni istehsal münasibətlərinin yaranması, material, əmək və maliyyə resurslarının səfərbər edilməsi, onlardan səmərəli istifadə olunması kimi məsələlər ön plana keçir. Mühasibat uçotu informasiyalarının yığılması, işlənməsi və toplanmış bu informasiyalar əsasında qərarların qəbul edilməsi müəssisənin fasiləsiz fəaliyyətinin əsasını təşkil edir. Bu məsələlərin həllində mühasibat-maliyyə uçotu informasiyalarından istifadə yeni informasiya texnologiyalarının yaranmasına zəmin yaradır. Çünki, yığılmış bu informasiyaların seçilməsi, saxlanması, işlənməsi və təhlil edilməsi yeni texnologiyalarsız mümkün ola bilməz.

Mühasibat (maliyyə) uçotu – idarəetmədə informasiya sisteminin maliyyə mərkəzi olub, müəssisənin idarə etmə aparatına, həmçinin xarici istifadəçilərə müəssisənin təsərrüfat fəaliyyəti haqqında tam və səhih məlumat verir. Mühasibat uçotu öz təyinatına görə müəssisənin fəaliyyətinin idarə olunmasında əsas üç funksiyanı yerinə yetirir:

- Nəzarət;
- Informasiya;
- Analitik.

➢Bazar iqtisadiyyatı şəraitində mühasibat uçotunun təkmilləşdirilməsi və Maliyyə Hesabatının Beynəlxalq Standartlara uyğunlaşdırılması onun qarşısında aşağıdakı vəzifələri qoyur:

➢Əsas vəsaitlərin daxil olmasını, istehsaldan çıxarılmasını və yerdəyişməsini düzgün və vaxtında uçotda əks etdirsin;

➢İstifadə olunan əsas vəsaitlərin miqdarı və saxlanmasını dəqiq və vaxtında uçotda əks etdirsin.

➢Əsas vəsaitlərin köhnəlməsini (amortizasiyasını) dəqiq və vaxtında uçotda əks etdirsin.

➢Əsas vəsaitlərin təmiri üzrə məsrəflərin müəyyən olunmasına və onlardan səmərəli istifadə olunmasına nəzarət etsin.

➢İstifadə olunmayan və ya istifadəyə yararsız əsas vəsaitləri vaxtında aşkar etsin.

➢İstifadə olunan maşın və avadanlıqların istehsal gücündən və xammal- materiallardan səmərəli istifadə olunmasına nəzarət etsin.

➢Rəhbərliyi müəssisənin təsərrüfat fəaliyyətini tənzimlənməsi məqsədi ilə vaxtında və düzgün informasiyalarla təmin etsin.

Müəssisələrin idarə olunmasında, idarəetmə qərarlarınının vaxtında və düzgün qəbul edilməsində mühasibat uçotu informasiyaları başlıca rol oynayır. Mühasibat uçotu informasiyalarının işlənməsi texnologiyalarının təkmilləşdirilməsi və yeniləşdirilməsi idarəetmənin əsas elementlərindən birinə çevrilir. Müəssisələrin təsərrüfat fəaliyyətinin idarə edilməsinin səmərəliliyinin yüksəldilməsi ilk növbədə idarəetmə rəhbərlərinin, menecerlərin, mütəxəssislərin keyfiyyətli informasiyalarla təmin olunmasından asılıdır. Mühasibat uçotu informasiyalarının vaxtında və keyfiyyətlə işlənməsi yalnız yeni informasiya texnologiyalarının tətbiqi əsasında baş verə bilər. Müasir dövrdə alınmış informasiyaların analitik işlənməsində hesablama texnikasından, kompyüterlərdən, telekommunikasiya və proqram təminatından, idarəetmə sistemlərinin avtomatlaşdırılmasından və s. geniş istifadə olunması, idarəetmə qərarlarının vaxtında və düzgün qəbul olunmasına imkan yaradır.

Mühasibat uçotu prinsipləri, sistemi və standartları daima təkmilləşdirilməklə, bazar iqtisadiyyatının formalaşmasında "Sahibkarlıq dili" və ya " Biznesin dili" vəzifəsini yerinə yetirməklə, idarəetmə sistemində mühüm rol oynayır. Mühasibat uçotu göstəriciləri idarəetmə sisteminin mühüm elementi olmaqla yanaşı, müəssisələrin maliyyə - təsərrüfat fəaliyyətinin tənzimlənməsində, istehsalın səmərəliliyinin artırılmasındakı rolu getdikcə artmaqdadır. Müəssisə və təşkilatlarda idarəetmə sisteminin bazar iqtisadiyyatının tələblərinə uyğun təşkili, ölkəmizdə Milli Mühasibat Uçotunun Maliyyə Hesabatının Beynəlxalq Standartları (MHBS) tələblərinə uyğun qurulmasını və təkmilləşdirilməsini zəruri edir. Bu gün bütün dünya iqtisadiyyatında informasiya, iqtisadiyyatın tənzimlənməsi və idarə edilməsində həlledici və müstəsna rol oynayır.

Müasir şəraitdə informasiyaların cəmiyyətin və iqtisadiyyatın idarə olunmasındakı rolu daha geniş yayılmağa başlamışdır. İqtisadiyyatın inkişafında və idarəetmə qərarlarının qəbulunda informasiya sistemindən istifadə 1950-ci illərdən başlamışdır. Bu dövrə qədər nə alimlər , nə də mütəxəssislər bu işə o qədər fikir verməmişlər. XX əsrin yarısından etibarən müəssisələrin idarə edilməsində informasiyaların işlənməsi perspektivi sürətlə yayılmağa başladı. İdarəetmə problemləri ilə məşğul olan alimlər, iqtisadçılar, psixoloqlar təşkilatı məsələdə informasiyaların rolunu işıqlandırmağa, qəzet və jurnallarda çap etməyə başladılar. (Març və Simon, 1958 il). Onlar idarəetmə qərarlarının qəbul edilməsində, informasiyaların işlənməsinin müəssisənin mənfəətinin artırılmasın da və əmək məhsuldarlığının yüksəldilməsində təsiri haqqında yazılar dərc etdirməyə başladılar.

1970-ci ildən başlayaraq, müəssisə və təşkilatlarda qərarların qəbul olunmasında informasiyaların işlənməsi sistemindən daha geniş istifadə olunmağa başladı.

Beləliklə, müəssisələrin fasiləsiz fəaliyyətinin

təmin edilməsi və idarəetmə qərarlarının qəbul edilməsində iqtisadi informasiyaların, xüsusi ilə mühasibat(maliyyə) uçotu informasiyalarının yığılması, saxlanması və işlənməsi prosesi getdikcə geniş vüsət almağa başladı. Iqtisadiyyatın müasir qloballaşması şəraitində mühasibat (maliyyə) uçotu və hesabatları informasiyalarından istifadə idarəetmə qəraralarının qəbul edilməsində əsas amilə çevrilmişdir. Azərbaycanda mühasibat uçotunun milli modelinin harmonizasiyasının təmin edilməsi məqsədi ilə son illərdə mühasibat uçotu sistemində bir çox islahatlar həyata keçirilmişdir. Bu islahatların başlıca məqsədlərindən biri də məhz, bazar iqtisadiyyatının tələblərinə cavab verə biləcək maliyyə uçotu və hesabatlarının hazırlanmasıdır. Hazırlanmiş bu informasiyalar idarəetmə sistemi üçün əlverişli, xarici investorlar tərəfindən isə başa düşülən olmasıdır. Son illərdə Maliyyə Nazirliyi mühasibat uçotu standartlarının Beynəlxalq Mühasibat Uçotu Standartlarına (MHBS) uyğunlaşdırılması istiqamətində lazımi tədbirlər həyata keçirir. Dünyadakı bir çox qurumlar tərəfindən kənar istifadəçilər üçün maliyyə hesabatları hazırlanır və təqdim edilir. Belə maliyyə hesabatlarının müxtəlif ölkələrdə oxşar görünməsinə baxmayaraq, sosial- iqtisadi və hüquqi vəziyyətlərdə müxtəlifliklərin səbəb olduğu fərqlər ortaya çıxır. Bu ölkələrdə milli tələblərin müəyyən edilməsi zamanı maliyyə hesabatları istifadəçilərinin tələblərindən irəli gələn fərqlər yaranır. Belə fərqlər müəyyən vəziyyətlərdə maliyyə(mühasibat) hesabatları elementlərinin müxtəlif anlayışlarının ümumiləşdirilərək istifadəsinə yol açıb. Məsələn, aktivlər, öhdəliklər, kapital, gəlir və xərclər. Bunlar maliyyə hesabatlarının əsas elementləri olub, maliyyə hesabatlarında maddələrin tanınması zamanı istifadə olunur.

Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi (MUBSK) maliyyə hesabatlarının hazırlanması və təqdim olunması ilə bağlı qaydaların, mühasibat uçotu standartlarının və prosedurlarının bir-birinə uyğunlaşdırılması məqsədilə bu fərqliliklərin azaldılmasına çalışır. Komitə inanır ki, daha yaxşı uyğunlaşdırmaya iqtisadi qərarların qəbul edilməsində faydalı olan informasiyanı təmin etmək məqsədilə hazırlanan maliyyə hesabatları üzərində fikirləri cəmləməklə daha çox nail oluna bilər**.** Bu məqsədlə hazırlanan maliyyə hesabatları əksər istifadəçilərin ümumi ehtiyaclarına cavab verir. Ona görə ki, bütün istifadəçilər iqtisadi qərarlar qəbul etmək üçün aşağıdakı müddəaları əsas götürürlər:

a) səhm investisiyasını nə zaman almaq, saxlamaq yaxud satmaq barədə;

b) rəhbərliyin idarəetmə qabiliyyətini və ya hesabatlılığını qiymətləndirmək barədə;

c) qurumun öz işçilərinə ödənişlər etmək və digər mükafatlarla təmin etmək imkanını qiymətləndirmək barədə;

d)müəssisəyə borc olaraq verilmiş məbləğlər üzrə zəmanətləri qiymətləndirmək barədə;

e)vergiqoyma siyasətlərini müəyyən etmək barədə;

f)bölüşdürülə bilən mənfəət və dividendlərin müəyyən edilməsi barədə;

g)milli gəlir statistikasının hazırlanması və istifadəsi barədə;

h)qurumun fəaliyyətinin tənzimlənməsi barədə.

Qeyd etdiyimiz kimi istənilən müəssisə və təşkilatlarda idarəetmə qərarlarının qəbul olunmasında mühasibat-maliyyə informasiyaları başlıca rol oynamaqla yanaşı onlara qoyulan tələbləri; - anlaşılanlığı, müqayisəliliyi, münasibliliyi, etibarlılığı ödəyə bilsin. İstifadəçilərə təqdim olunan informasiyalar əsaslandırılmış və keyfiyyətli idarəetmə qərarlarının qəbul olunmasına zəmin yaratsın. Bütün müəssisə və təşkilatlarında idarəetmə qərarlarının qəbulu zamanı istifadə olunan informasiyaların əhəmiyyətli hissəsini mühasibat (maliyyə) uçotu və hesabatları informasiyaları tutur.

**Informasiyaların işlənməsinin müəssisənin idarəedilməsində rolu**

İqtisadi inkişafın müasir mərhələsində onun idarəedilməsinin mühüm elementlərindən biri informasiya təminatıdır. İnformasiyaların toplanması, qruplaşdırılması, saxlanması, işlənməsi , ötürülməsi və istifadə edilməsinin bütün dünyada tətbiqi iqtisadiyyatın qlobal inkişaf problemlərindən biri hesab olunur. Bu problemin həllində mühasibat uçotunun kompyüterləşdirilməsi və onun göstəricilərinin analitik işlənməsi mühüm yer tutur, çünki ölkə iqtisadiyyatının əsas subyektləri olan müəssisə və

təşkilatlarda iqtisadi informasiyaların əsasını mühasibat uçotu informasiyaları təşkil edir. Əldə olunmuş informasiyalar yığılaraq təhlil edilir və qərarların qəbul edilməsi üçün rəhbərliyə və maraqlı tərəflərə verilir.

Hesabat dövründə müəssisənin (təşkilatın) fəaliyyəti haqqında tam və doğru məlumat almaq üçün, mühasibat (maliyyə) uçotu və hesabatı göstəricilərini yazmaq, izahını vermək, şərh etmək, ümumiləşdirmək lazımdır. Təhlilin nəticələri bir qayda olaraq, analitik şəkildə izah vərəqələrində yazılmalıdır.

Hesabat göstəricilərinin təhlil zamanı onların şərhində peşəkar qərarların qəbul edilməsində mütəxəssis analitiklər əhəmiyyətli rol oynayır, belə ki, təsərrüfat fəaliyyəti haqqında doğru-düzgün məlumat verərək ümumi vəziyyətin qiymətləndirilməsinə və effektiv idarəetmə qərarlarının qəbul edilməsinə imkan yaradır. Təbii ki, bu da mütəxəssis analitikin təqdimatından, inamından, onun bilik səviyyəsindən asılıdır. MHBS –ya uyğun olaraq peşəkar qərarlar – mühasibat uçotu standartının elementi, mühasib peşəsinin mədəniyyət elementidir. Peşəkar qərarın bir neçə növü vardır ki, *bunlardan birincisi,* uçot siyasətinin formalaşmasında (xərclərin paylanması metodunun seçilməsində, istehsal –material ehtiyatlarının qiymətləndirilməsində, amortizasiya ayırmalarında və .s) istifadə olunur. *İkincisi* , mühasibat – maliyyə uçotunda müəyyən məsələlər normativ –hüquqi baza ilə tənzimlənməlidir. *Üçüncüsü*, mühasibat uçotunda müxtəlif normativ aktlar birbiri ilə düz gəlməli, uyğunlaşmalıdır. D*ördüncüsü* mühasibat uçotunun fəaliyyətdə olan qaydaları qanunverici sistemlə tənzimlənməlidir ki, bu da peşəkar mühasibin vəzifəsini yerinə yetirməyə imkan vermiş olsun.

Müəssisənin fasiləsiz fəaliyyətinin təmin edilməsi və düzgün idarəetmə qərarlarının qəbulu məqsədi ilə müxtəlif sahələrdən toplanmış informasiyalar qruplaşdırılır, işlənilir, saxlanılır və idarəetmə qərarlarının qəbul edilməsi məqsədi ilə ötürülür. Bu zaman mühasibat(maliyyə) uçotu göstəricilərinin dəqiqliyi və etibarlılığının yoxlanılmasına xüsusi fikir verilir, çünki, düzgün qərarların qəbul olunması əldə olunmuş göstəricilərin düzgünlüyündən asılıdır. Bildiyimiz kimi ilkin sənədlər bir qayda olaraq bu və ya digər təsərrüfat əməliyyatlarını əks etdirir və bu zaman göstəricilərdə sürüşmələr ola bilər ki, bu da rəqəmlərdə səhvlərin olmasına səbəb olar. İnformasiyaların dəqiq olmaması bir çox obyektiv və subyektiv səbəbdən ola bilər. Bunun üçün informasiyalar bir neçə mərhələdə yoxlanılır;

1.Hesablar üzrə yoxlama – bu zaman dövriyyə -qalıq cədvəlləri tərtib olunur və bunun əsasında hesablar üzrə yoxlama aparılır.

2.Qarşılıqlı yoxlama – müxtəlif mənbələrdən alınmış informasiyalar müqayisə edilərək qarşılıqlı yoxlanılır.

3.Məntiqi yoxlama – müəsisədə yaranmış iqtisadi vəziyyət analitik araşdırılır, bununla yanaşı daxili informasiyaların xarici informasiyalara uyğunluğu yoxlandıqdan sonra onun düzgünlüyünə inanılır.

4. (düzəliş) - Uçot göstəricilərinə əsasən müəssisənin əmlakının balans mənfəətinə , şəxsi kapitalın həcminə və amortizasiyaya düzəliş edilir. Bu zaman həyata keçirilən düzəliş əsaslı və obyektiv olması xüsusi əhəmiyyət kəsb edir.

Müəsisələrin idarə olunmasında əsas məsələ onun maliyyə - təsərrüfat fəaliyyəti haqqında informasiyaların analitik təhlilidir. Bu tələb edir ki, müəssisənin maliyyə - təsərrüfat fəaliyyətində daxili və xarici amillər nəzərə alınmaqla, alınmış informasiyalar analitik işlənilsin. Informasiyaların analitik işlənməsi prosesi müxtəlif texniki vasitələrlə həyata keçirilir və bu da mühasibat uçotu göstəricilərinin yığılması, işlənməsi, saxlanması və informasiyaların ötürülməsi , operativ qərarların qəbul olunması , istehsal prosesinində uçot və nəzarətin yerinə yetirilməsinə imkan verir.

İnformasiyaların analitik işlənməsinə aşağıdakılar daxildir:

1.Göstəricilər sisteminin müəyyən olunması – həyata keçirilən təhlilin öyrənilməsi tələb edir ki, təhlil nəticəsində qarşıya qoyulan məqsədə nail olunsun.

Göstəricilər aşağıdakı kimi qruplaşdırılır:

Hesablanma qaydasına ;Tətbiq olunan ölçülərə görə; Alınma xüsusiyyətlərinə görə; Ümumiləşdirmə dərəcəsinə görə; Müəssisənin fəaliyyətinə münasibətinə görə;

2.İnformasiyaların ümumiləşdirilməsi;

Səmərəlilik amillərinə görə; Həyat dövrü mərhələlərinə görə .

Mühasibat uçotu informasiyalarının analitik işlənməsi prosedurlarının səmərəli olması bir başa informasiya təminatının keyfiyyətindən asılıdır. Çünki, informasiyaların işlənməsi prosedurunda həmin informasiyaların keyfiyyətinə nəzarət edilir. Mühasibat çotu informasiyalarının analitik işlənməsi prosedurlarının həyata keçirilməsidə informasiyalara aşağıdakı keyfiyyət tələbləri qoyulur:

➢Zərurilik – informasiyaların məzmunu xarakterizə edir və onun istifadə dərəcəsinin əhəmiyyətliliyini göstərir;

➢Kifayətlilik - Həyata keçirilmiş təsərrüfat əməliyyatlarını miqdar və keyfiyyət baxımından əhatə etsin;

➢Vaxtında olma – informasiyaların vaxtında çatdırılması analitiklərə onların işlənməsinin maksimum az vaxtda işləməyə imkan verir;

➢ Həqiqilik və etibarlılıq - informasiyaların formalaşma mənbələrinin həqiqiliyi və idarəetmədə onların etbarlılıq dərəcəsini müəyyən edir;

➢Analitiklik – təsərrüfat fəaliyyətinin faktlarının dəqiqliyi, onların ayrı- ayrı hissələrinin, detallarının öyrənilməsi.

Mühasibat uçotu informasiyalarının analitik işlənməsi müəssisənin maliyyə- təsərrüfat fəaliyyətində yaranan neqativ halların aşkarlanmasına, onların vaxtında aradan qaldırılması üçün qərarların qəbul olunmasına imkan yaradır. Mühasibat uçotu və hesabatları informasiyalarının analitik işlənməsi həm müəssisənin daxili idarə edilməsində, həmdə xarici istifadəçilərə təqdim edilməsi üçün istifadə olunur.

Mühasibat uçotu informasiyalarından müəssisələrin rəhbər işçiləri, mühasibləri ilə yanaşı vergi oqranları, investorlar, bank mütəxəssisləri, hüquqşünaslar və s. geniş istifadə edirlər. Ona görə də bir sıra hallarda mühasibat uçotunu "Sahibkarlığın dili" kimi adlandırırlar. Bu dildə danışmalı olan sahibkarın fəaliyyətinin bütün iştirakçıları mühasibat uçotunun nəzəri və təcrübi əsaslarından və onun anlayış və terminlərindən daha çox istifadə edirlər.

Bir çox iqtisadi alimlərin tədqiqat və hesablamalarına görə dünya ölkələrinin iqtisadiyyatının idarəedilməsində istifadə olunan informasiyaların 70 faizdən çoxu mühasibat(maliyyə) uçotu və hesabatları məlumatlarıdır. Bir qayda olaraq iqtisadi subyektlərin bütün əmlakı, o cümlədən əsas vasitələr, xammal-materiallar, yanacaq-energetika, əmək və maliyyə ehtiyatları informasiyaları mühasibat uçotunda sistemləşmiş şəkildə toplanaraq istehsalat, maliyyə-təsərrüfat fəaliyyəti üzrə istənilən nəticələrin əldə olunmasına şərait yaradılır.

İnformasiyaların idarəetmə sistemində faydalı istifadə olunmasını təmin etmək üçün mühasibat uçotunun təşkili yüksək səviyyədə olmalıdır. Yüksək səviyyədə təşkil olunmuş mühasibat uçotu Maliyyə Hesabatının Beynəlxalq Standartlarına (MHBS) uyğunlaşdırılması, hesablama texnikasından geniş istifadə edilməsinə şərait yaradır. Keyfiyyətli təşkil olunmuş mühasibat uçotu informasiyaları müəssisə və təşkilatların istehsal əməliyyatlarının bütün mərhələlərinə nəzarət etməklə müxtəlif idarəetmə mərhələlərində idarəetmə qərarlarını əsaslandırmaq və qəbul edilməsində başlıca mənbədir.

Buradan belə qənaətə gəlmək olur ki, mühasibat uçotu- müəssisənin, təşkilatın idarəetmə və informasiya sisteminin əsasıdır. Mühasibat(maliyyə) informasiyaları bazar müxanizminin vacib elementi olmaqla, müəssisənin maliyyə təsərrüfat fəaliyyətinin tənzimlənməsində və səmərəli fəaliyyət göstərməsində başlıca rol oynayır. Bu vəzifənin yerinə yetirilməsində mühasibat uçotunun bütün bölmələri, o cümlədən mövcud ehtiyatlardan səmərəli istifadə olunması məhsul istehsalı, sərf olunmuş məsrəflərin həcmi, qiymətlərin düzgün tətbiq olunması müəssisələrin rəqabət qabiliyyətini və davamlı inkişafını təmin edir.

## ƏDƏBİYYAT SİYAHISI

1." Mühasibat uçotu" Q. Rzayev.

2."Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunu. Bakı-2004-cü il

3.Ə.A.Sadıqov, Ş.Ə. Cəfərova və b.. Mühasibat uçotu. B.2015

4. «Бухгалтерский учет» теория и практика. Кондратаков В.И М-2012

5.Бреславцева Н.А., Сверчкова О.Ф. Существенна ли информация, содержащаяся в бухгалтерской отчетности? / Экономический

анализ: теория и практика. - 2008.- № 3.- С.23-279

6.К.П. Янковский., И.Ф.Мухраб «Управлеический учет» Москва,2011.

**Гаджиева М. Х.**
Старший лаборант, магистр кафедры
«Бухгальтерский учет и аудит»
Азербайджанского Университета Кооперации

**Информации бухгалтерского учета-является важным фактором управлении**

**Резюме**

Роль бухгалтерской информации в управлении финансово–хозяйственной деятельности предприятии. Применение новейший технологии в обработки бухгалтерской информации.

**Ключевые слова:** *бухгалтерский учет, показатели учета, информация, управления, принятие рещения, финансы.*

**Hajiyeva M. K.**
High laboratory assistant, master
Depertament Accounting and audit
Azerbaijan Cooperation University

**Accounting information is an important management factor**

**Abstract**

**Purpose of the research-** investigation important role of accounting information in management of financial- economic activity of enterprises

Methodology- systematic approach

Findings – definition role accountancy information in management of financial- economic activity of enterprises

**Key words:** *accountancy, accounting indicators, metrics, information, management, decision,order, finance.*

**Daxil olub:** 16. 08.2017
**Rəy verib:** AMEA İqtisadiyyat Institutunun *"Maliyyə, pul-kredit siyasəti"* şöbəsinin əməkdaşı i.f.d. *Əliyev R.M.*